# Göy elə göydü, qar isə ağdı...

**Yaşanılan mühit insanı yetişdirir.**

Tanrı insanı kainata bəxş edəndə onun yaşam tərzini, yaşama gücünü, həyati mübarizələri qarşılamaq, qarşılaşdığı çətinlikləri dəf etmək, kədər və sevinc adlı təzadların hər birinin öz səddini keçmək qabiliyyəti vermişdir. Axı insan bir məxluqdur, ən şüurlu bir canlıdır. Bu canlılara ağıl və düşüncə də onun insan ömrünü yaşaması üçün verilmişdir. Məhz elə bu yaşam tərzi də onun tale və "alın" yazısıdır.

Hər kəs öz taleyini yaşayır; həm də öncədən bilmədən. Bəzən düşünürəm ki, insan əvvəlcədən gələcək həyat, ömür yolunu bilsəydi, yaşadığı ömrü özü istədiyi kimi yönləndirsəydi görəsən, həyat necə davam edərdi? Həyat bayağılaşardımı? Həyat "olardımı"? Dünyanın bütün canlıları eyniləşməzdimi? Ancaq düşüncələrimə elə özüm də cavab tapıram: əstəğfirullah ! Hər şeyin yaradıcısı uca Tanrıdır. İnsana yaşam verən də, həyatı həyat edən də o gözəgörünməz Tanrıdır. Taleyi yazan da odur. Məhz buna görə də insan ta yaranışdan alın yazısı deyilən bir kəlama inanır və bu alın yazısı ilə "barışaraq" yaşayır. Hər bir insanın da ən yaxın "arxa-dayağı" elə Tanrıdır. Tanrı bəxş edən hər şey - acılı-şirinli saydığımız həyat alın yazımızdır.

Həyatda yaşayan hər insanın ardıcıl olaraq öz soy-kökü olur. Bu soy-kök onun bir-birinin gələcək həyatını davam etdirən nəsillərdir. Bu isə şəcərə adlanır. Hər insanın şəcərəsi də bir nəslin həyat tarixidir. Bu həyat tarixi bəzən gələcək nəsillərin yaşam tərzində təzələnir. Damarlarda axan qan sanki öz "tərkibini" təkrarlayır. Bu insanlara xas olan igidlik "sindromu"dur. Bu sindrom isə hər soy-kökə məxsus olmaz. Bu seçilmiş insan ömürlülərə məxsus olar. İnsan ömrünün elə məna "çalarları" da onun soykökünə məxsus xüsusiyyətlərinin qanında təzahür etməsidir...

Xeyirxahlıq, vicdani saflıq, vətənpərvərlik, mənəvi paklıqdır. Çox zaman hələ körpə yaşlarından başlayaraq insanın qarşılaşdığı insanlar da yaşam tərzinə təsir göstərir. Və dünyagörüşün formalaşmasında belə təsirlər müstəsna rol oynayır.

İnsan tərbiyəni ta uşaqlıqdan diktə ilə almır, yaşadıqlarından bəhrələnir. Diqqət etsək qəhrəmanlıq tariximizə, bu daha aydınlığı ilə görünər. Şəhadət yolçuları, qazilik, elm fədailəri, zəhmətdən "yoğrulan", həyat yaşayan insanlar... məhz "gözlə görünməyən" mənəvi saflıq, vicdanı paklıq içində olan şəxslərdir. Bax, belə bir gənc idi İqbal da... Elə bir gənc ki, elinə, obasına bağlılığı özünə ən yüksək amal seçmişdi. Elə bu amalla da yaşamına davam etdi.

**Ağıl və qəlbin birgə hökmü.**

Fəlsəfi şairimiz Məmməd Araz bu şeirində sanki nakam arzulu bu gəncin düşüncələrini qələmə almışdır.

***Belə olmalıydı yəqin ki, belə:***
***Çiynimə bu yükü götürməliydim.***
***Ağlımın hökmünü mən bilə-bilə***
***Qəlbimin hökmündə itirməliydim...***

İqbalın ailəsi, əzizləri ilə bir neçə dəfə görüşmüşdük. Qəbələdəki evlərində onun xatirə muzeyini, məzarını ziyarət etmişdik. Anası, nənəsi və bibiləri ilə görüşmüş, xatirələrini dinləmişdik. Öz həyat yolunu özü istədiyi kimi seçməsi onun gənc yaşlarında seçdiyi yola nəzər etdikdə daha aydın görünür. İqbal həqiqətən ağlının hökmünü qəlbinin hökmündə itirənlərdən biri oldu...



Uşaqlıqdan doğma torpağına bağlılıq, ata-ana yurdunun əsrarəngiz gözəlliyi onu valeh edərdi. Bayram və məktəb tətili günlərində Qəbələyə gələr, çaylarını, dağlarını, düzlərini özünə ən gözəl seyrəngah seçərdi. Qəbələnin tarixi məkanlarını gəzməyi, ağsaqqal və ağbirçək qohum və tanışlarını ziyarət etməyi xoşlardı. Ata yurdunun hər fəslini özünəməxsusluğu ilə sevərdi. Babaları haqqında eşitdiyi hər ürəyəyatımlı və qürurlandırıcı söhbətlər onun öz soykökünə olan hörmət və rəğbətini artırırdı. Məhz babaları kimi xalqının gərəkli övladı olaraq yaddaşlarda əbədi yaşamağın yollarını düşünərdi. Axı, onun ata babası Baba Babayev rayonumuzun tanınmış ziyalılarından biri idi. Həmçinin Baba müəllim vətənpərvərlik haqqında, insana və insanlığa xas hər bir mövzunu poetikləşdirərdi. Həyatda olduğu dövrdə rayonumuzun tanınmış ziyalısı olan Baba müəllim hər kəsin yaddaşında öz soyadını əbədiləşdirərək bu gün də adı hörmətlə xatırlananlardandır.

İqbal ana babası ilə də fəxr edərdi. Ana babası təkcə Qəbələdə deyil, respublikamızda belə hörmətlə xatırlanan bir soyada aiddir. Onun ana babası Əlimirzəyev Əşrəf Sovet dövründə Sosialist Əməyi Qəhrəmanı olmuşdur. Öz peşəsi, insanlığı ilə xalqa, vətənə xidməti ilə tanınmış, adını yaddaşlarda əbədiləşdirmişdi. Əşrəf Əlimirzəyevin adı Qəbələdə, xüsusilə İqbalın ata evinə yaxın küçələrdən birinin adını daşıyır.

İqbal həmişə soykökü ilə fəxr edən biri olmuşdur. Qəhrəman babasına oxşamaq onun uşaqlıq arzusu olmuşdur. Ağlı ilə, qəlbi ilə birgə düşünərdi arzularını İqbal. Ağlında olan arzuları düşünsə də, qəlbindəki ən ümdə arzusu işğal altında olan torpaqlarımızın yad tapdağından təmizlənməsi, ölkəmizin bütövlüyünün bərpası, xalqımızın xoşbəxt gələcəyi idi. İqbal məhz buna görə də, ağıl və qəlbinin birgə hökmünü özünə ən doğru olanı kimi seçdi...

**İqbalı tanıyırsınızmı?**

İqbal Zəki oğlu Babayev 1995-ci il sentyabrın 10-da Xətai rayonunda dünyaya göz açmış, 257 saylı orta məktəbi bitirmişdir. İqbal Xəzər Universitetinə qəbul olmuş, iqtisadiyyat fakültəsində təhsil almışdır. 2018-ci ilin iyul ayında həqiqi hərbi xidmətə çağrılmış, Naxçıvanda xidməti borcunu başa vurmuşdur. Təhsilini davam etdirmək, dövlət qulluğuna hazırlaşaraq savadlı bir mütəxəssis kimi xalqına xidmət etmək istəyirdi İqbal. Lakin sərhəd zonalarında baş verən hadisələrin heç də xoş sonluqla bitməyəcəyini bir vətən övladı kimi İqbal da düşünürdü. 2020-ci ilin iyul hadisələri vətənsevər bir gənc kimi onu da sarsıtmışdı. Ordumuzun ən igid oğullarından bir qrupunun, başda general-mayor Polad Həşimov olmaqla terror qurbanına çevrilməsi onun yenidən ordu sıralarına qatılmaq arzusunu gerçəkləşdirdi. Artıq torpaqlarımızın döyüş yolu ilə qaytarılması fikri bir gənc kimi onun da düşüncələrinə hakim kəsilmişdi.

2020-ci ilin sentyabrında İqbal Babayev Xətai rayon könüllüləri ilə birgə cəbhə bölgəsinə yollandı. İqbal Babayev ailəsinin, yaxın qohumlarının hörmət və vəzifəsindən istifadə edərək "bəziləri" kimi "od-alovdan" uzaq dura bilərdi. Ancaq onun aid olduğu ailə, yaxınları belə vətənpərvər idilər, belə bir məqamda övladlarına "uzaq dur" deyə bilməzdilər və onların övladı da bunu qəbul etməzdi. Qəhrəman və vətənpərvər soy-kök özünü büruzə verirdi.

**Bayraq enməz və endirilməz**

Bayraq dövlət rəmzi, dövlətin, ölkəsini, Vətənini sevən hər kəs Bayrağını qoruyar. Ordumuz bayrağımızı təmsil etmiş və xaincəsinə yağmalanmış Qarabağ ərazisində yenidən bu bayraqların dalğalanması üçün döyüşmüşlər.

İqbal 44 günlük müharibədə Cəbrayıl, Füzuli və Zəngilan istiqamətində gedən döyüşlərdə igidliklə döyüşmüşdür. Düşməndən azad olunmuş məntəqələrdən birinə bayraq sancılması da İqbala nəsib olmuşdur. Bayrağı yüksəkliyə asmaq onun müqəddəs arzularının gerçəkləşməsinin başlıca yolu idi. Çox sevinmişdi. Axı o, bayrağın dalğa səsini çox sevirdi... "Bayraq enməməlidi!" düşüncəsi ilə də oktyabrın 21-dək döyüşdü. Füzuli rayonu Gecəgözü kəndi istiqamətində gedən döyüşlərdə şəhadətə qovuşdu... Çətin relyefdə bir neçə gün İqbalın nəşini döyüş bölgəsindən çıxarmaq mümkün olmadı. Silahdaşları oktyabrın 27-də onun nəşini neytral ərazidən çıxarmağa müvəffəq oldular.

İqbal Babayevin ailəsi, əzizləri bu tarixdə 21-27 oktyabrda hər dəqiqə ölüb-dirildilər. Ürəklərində ona ölümü yaraşdırmasalar da, ölümə inanmasalar da həyəcan dolu ürək döyüntülərinin ritmində belə bir məyusluq yaşayırdılar... Elə bu məyusluq İqbalın ata yurduna öz ayaqları ilə deyil, bayrağı özünə libas seçərək, "ölüm arabası"nda gəlməsi ilə sona yetdi...

**Qəbələ, igidini qəbul et...**

Atası Zəki müəllim övladını ata yurduna gətirirdi, qədim Qəbələ və vətənpərvər insanlar onu qarşılayırdı. Döyüş yoldaşları əllərində onun qürurlu şəkilləri ilə gəlirdilər, igid silahdaşlarını qədim Qəbələ torpağına "tapşırmaq" üçün... İqbalın şəkilləri sanki dil açırdı:

***Çıxıb bu dünyanın yoluna mən də,***
***Dönüb durmalıydım bir astanada...***

Bu astana Qəbələ şəhərinin mərkəzi oldu... Ata-baba yurdu... Məzar daşında da İqbal "danışırdı" sanki:

***Mənli də, mənsiz də bu dünya vardı,***
***Göy belə göy idi, qar belə ağdı.***
***Bu dünya elə bil nəğməli valdı,***
***Mənli də, mənsiz də oxuyacaqdı...***

İqbal bir igid kimi təltiflər də aldı, ən uca zirvəyə ucalaraq şəhid titulu qazandı. Qəhrəman babanın qəhrəman nəvəsi oldu. Vətənpərvər insanların vüqarı, qüruru, torpağımızın, Vətənimizin igidlik rəmzi oldu. Ancaq əzizlərinin - atası Zəki müəllimin, anası, Ülviyyə xanımın, qardaşları İqrar və Turqut, bibiləri Humay müəllimənin, Telli həkimin, dayısı Sübhanın (tanıdığım bütün qohumlar) və bütün onu tanıyan insanların yaddaşında həyat dolu bir gəncin nakam arzular mücəssəməsi oldu. Bu arzuların həyata keçirilməsi mümkün olanları yaşatmalıyıq, hamılıqla. Zəfər arzusu ilə döyüşüb, qalib bir orduya qəhrəmanlıq tarixi yazanlardan biridir İqbal! Zəfər paradını bütün şəhid dostları kimi ruhu ilə izləyən biridir İqbal! Hardasa müqəddəs sevgi nağılını sonlandırmaq istəməyən, hicran zümzüməsinin ürək döyüntülərinə rəng qatdığı, gözlərinə həsrət kölgəsi qonan bir sevən azərbaycanlı gözəlinin nağıl dünyasıdı İqbal!.. Əbədiyyən gənc, bahar ömrü yaşayan qəhrəmanlıq təcəssümü, məğrurluq simvoludur İqbal! Yuxularını kiçik qardaşına danışdıqdan (21 sentyabr - 21 oktyabr) düz bir ay sonra onu aparmaq istəyən "ağpaltarlılarla" cənnətə ömürlük sakin olandı İqbal!

Məmməd Araz sənin üçün illər əvvəl yazmışdı sanki:

***Bir gün idi... qərq olmuşduq nura,***
***gedirdik,***
***Bir taleyin dan yerində,***
***qürubunda biz...***

Əbədiyyət dünyasında məkanın cənnət olsun, şəhidim!

**BIBIXANIM.**

---

*Maraq dünyamız*

# Qorxmaz qadın

Gülsüm 1861-ci ildə Şəmkir rayonunun Sarxan kəndində anadan olub. O, kəndin ağsaqqallarından sayılan Əmirqulu kişinin böyük qızı idi. Əmirqulu kişinin ondan başqa 6 oğlu, 1 qızı da vardı.

Gülsümün həyatı iki ildən çox vergi vermədiklərinə görə pristavın və kəndxudanın evlərinə gələrək ailəsinin qarşısında atasını təhqir etməsi ilə dəyişir. Pristavın qaynar samovarı Əmirqulu kişinin kürəyinə sarıyıb zülm etmələrinə dözə bilməyən Gülsüm pəncərədən pristavı, daha sonra isə qaçmaq istəyən kəndxudanı güllələyir.

Başına gələcəkləri yaxşı bilən Gülsüm qardaşlarının qabağa düşüb asılmasına mane olmaq üçün onlardan birinin paltarını geyinib evdən qaçır və meşədə gizlənir. Daha sonra xəbər göndərir ki, pristiav və kəndxudanı o vurub.

Gülsüm daha sonra Qaçaq Kərəmin dəstəsinə qoşulur. O, təkcə çar məmurlarına, bəylərə, pristavlara qarşı deyil, eyni zamanda, yerlərdə əhalini çapıb-talayan yerli məmurlara, həmçinin azğın quldur dəstələrinə qarşı da amansız mübarizə aparırdı.

**Qatardakı siyasi dustaq**

1902-ci ildə Qaçaq Kərəm Gülsümə xüsusi bir tapşırıq verir. Belə ki, Tiflisdən Gəncəyə bir vaqon dustaq, bir vaqon da pul göndərilir. Kərəm Gülsümə bildirir ki, gürcü dostlarının xahişi var ki, qatarda siyasi bir dustaq var və o, mütləq xilas edilməlidir. Gülsüm əməliyyatı uğurla başa vurur və dustağı azad edərək pulları ələ keçirir. Qatardakı siyasi dustaq Soso Cuqaşvili (İosif Stalin) idi və o, Gülsümün dəstəsinə qoşulur.

Soso 7 ay Gülüsümün dəstəsində qalır və onun əmri ilə xeyli əməliyyatlarda iştirak edir. Soso, hətta Qaçaq Gülsümlə birgə Metex qalasından xeyli qaçaq azad edir.

Qaçaq Gülsümü digər qaçaqlardan seçən tək xüsusiyyət onun qadın olması deyil, həm də ölkəsinin rus işğalı altında olması ilə barışmaması idi. Təsadüfi deyil ki, bir dəfə meşəyə gələn rus komandir Gülsümlə söhbət əsnasında ona üzə çıxmasını və Çar ordeni ilə təltif edilməsini təklif edir. Hətta bütün etdiklərinin bağışlanacağını və toxunulmazlıq veriləcəyini vəd edir. Buna Gülsüm belə cavab verir: "Mənə rus çarının heç bir ordeni və təklifi lazım deyil, mən padşahım kimi onu qəbul etmirəm. O, padşahım olsa, mən qaçaq olmazdım". Bu fakt bir daha ondan xəbər verir ki, Gülsüm təkcə qaçaq deyil, həm də dövrün xalq hərəkatının tanınmayan simalarından olub.



**"Sadiq bir dost 300 ermənidən daha yaxşıdır"!**

Gülsümün qadın olduğu sirrini cəmi üç nəfər bilib - Qaçaq Kərəm, Əskiparalı Qaçaq Usub və Soso Cuqaşvili, yəni Stalin. Qaçaq Kərəmin göstərişi ilə Gülsüm Türkiyəyə yola düşür. Bir müddət Bitlisdə yaşadıqdan sonra Rusiyada çevrilişin olması və Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi səbəbi ilə Gülsüm doğma yurduna qayıdır.

Öz kəndinə qayıdan Gülsüm burada İsmayıl adlı bir kişiyə ərə gedir. Hansı ki, İsmayıl dul idi və dörd uşağı vardı. Bundan sonra da onların altı oğlu, iki qızları olur.

SSRİ dövründə ilk zamanlar Gülsümə toxunmurlar. Lakin ermənilər Gülsümə göz verib, işıq vermirlər. Nəhayət, 4 erməni "milisi" gəlib onun hamilə gəlinini zorla işə aparmaq istəyəndə əlinə silah alan Gülsüm milislərin (polislərin) dördünü də yerindəcə güllələyir. Hadisəyə görə, onu həbs edirlər. O, məhkəmə zamanı Stalinə xəbər göndərilməsini tələb edir. Bu xəbər dövrün Azərbaycan SSRİ rəhbəri Mircəfər Bağırova çatır. O, şəxsən Stalinə məlumat göndərir ki, bir qadın qətl törədib, lakin mütləq rəhbərə xəbər göndərilməsini istəyir, deyir ki, onu şəxsən tanıyır. Bunu eşidən Stalin dərhal Bağırova zəng vurur və əmr edir ki, Gülsümü azad etsinlər. Oğlunu da kolxoz sədri qoysunlar. Daha sonra Stalin əlavə edir ki, Gülsüm onun ən yaxın dostudur.

Bu qərarla barışmaq istəməyən Mikoyan Stalinə deyir ki, axı qadın qatildir, 300-dən çox erməni öldürüb. Stalin cavab verir ki, çətin günlərdə 7 ay bu qadının çörəyini yeyib, himayəsində olub. Belə dost bütün hər şeydən (300 ermənidən də) dəyərlidir.

Deyilənə görə, Gülsüm 101 il ömür sürüb və 1962-ci ildə dünyasını dəyişib. Onun məzarı Şəmkirin Sarxan kənd qəbiristanlığındadır.